**16.09.2022: xəbər**

**Department Head of Khazar University at the event of the 104th anniversary of the liberation of Baku from the Dashnak-Bolshevik occupation at the Turkish Embassy**

On September 15, 2022, an event was held at the Turkish embassy in Azerbaijan on the 104th anniversary of the liberation of Baku from the Dashnak-Bolshevik occupation by the Caucasian Islamic Army.

The participants of the event first got acquainted with the art exhibition depicting the liberation of Baku from occupation by the Caucasian Islamic Army.

Then the memory of the martyrs of Azerbaijan and Turkey was commemorated with a minute of silence, and the national anthems of the two countries were played.

Ambassador of Turkey to Azerbaijan Cahit Bağçı, President of the International Turkish Culture and Heritage Foundation Gunay Efendiyeva, General Secretary of TURKPA Mehmet Süreyya Er, MPs Anar Iskanderov, Aydın Mirzazadeh, Hikmet Babaoğlu and Ramil Hasan spoke at the event and highlighted the importance of the events of September 15. They talked about Turkish-Azerbaijani brotherhood.

Associate Professor Telman Nüsratoglu, head of Khazar University's History and Archeology Department, presented documents on the history of Azerbaijan-Turkey relations, talked about the placement of Armenians in the South Caucasus, and looked at Ottoman-Azerbaijani relations.

The event ended with the recitation of the Holy Quran and prayers for the souls of the martyrs.

AZERTAC published a wide news about the event accompanied by photos:
https://azertag.az/xeber/Turkiyenin_olkemizdeki_sefirliyinde_Bakinin_dasnak_bolsevik_isgalindan_
azad_edilmesinin_104_cu_ildonumu_qeyd_olunub-2293049

**“Xəzər”in departament müdiri Türkiyə səfirliyində Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 104-cü ildönümü tədbirində**

2022-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 104-cü ildönümü münasibətilə Türkiyənin Azərbaycandakı səfirliyində tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Bakının Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad olunmasını əks etdirən rəsm sərgisi ilə tanış olublar.
Sonra Azərbaycan və Türkiyə şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, iki ölkənin Dövlət himnləri səsləndirilib.
Tədbirdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er, Milli Məclisin deputatları Anar İskəndərov, Aydın Mirzəzadə, Hikmət Babaoğlu və Ramil Həsən çıxış edərək, 15 sentyabr hadisələrinin əhəmiyyətindən söz açmış, Türkiyə-Azərbaycan qardaşlığından danışmışlar.
Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu Azərbaycan-Türkiyə əlaqələrinin tarixi haqqında sənədləri təqdim edib, Cənubi Qafqazda ermənilərin yerləşdirilməsi haqqında danışıb və Osmanlı-Azərbaycan münasibətlərinə nəzər salıb.
Tədbir "Qurani-Kərim"in tilavəti və şəhidlərin ruhuna duaların oxunması ilə başa çatıb.
AZƏRTAC tədbir haqqında fotolarla müşayiət olunan geniş xəbər yayımlayıb:
https://azertag.az/xeber/Turkiyenin_olkemizdeki_sefirliyinde_Bakinin_dasnak_bolsevik_isgalindan_
azad_edilmesinin_104_cu_ildonumu_qeyd_olunub-2293049